# CƏMİL CƏMİLBƏYLİ

**Bakı Dövlət Universiteti Filologiya fakültəsinin Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə III kurs, Fl-099 qrup tələbəsi.**

## EVLİLİK GÖRÜŞÜ

Görüşüb söhbətləşdik,
O ondan danışdı,
Mən səndən.
Çox sevdiyini dedi,
Necə qucaqladığını başa saldı,
Əlini necə tutduğunu.
Necə unutduğumu danışdım,
Daha doğrusu, unutmadığımı.
Görüşdükləri bütün yerləri
göstərdi mənə,
Sənə yazdığım şeiri göstərdim ona,
Hansı ki, göstərməmişdim sənə.
Ən sevdiyim şokoladdan danışdım ona,
Şokoladı onun dodaqları imiş,
Belə dedi onda.
Sevdiyi yeməklərin adını çəkdi,
Göz yaşı tökdü.
Mən də kövrəldim,
Sənin çox gözəl olduğunu söylədim.
O mənə onun yaraşığından,
Duruşundan, baxışından danışdı.
Gözlərin düşdü yadıma,
Yenə könlüm yandı, alışdı.
Birgə izlədikləri filmin adlarını
not dəftərimə yazdım,
Vərəqlərin arasından şəklin sürüşüb düşdü,
Baxsın deyə ona uzatdım.
Gözəl imiş dedi,
Bütün rəfiqələrindən gözəl imiş.
Sonra çayımızı içib qurtardıq,
İki sevgi nağılını bizə verilən
bir saata sığdırdıq.
Qulaq asdıq bir - birimizə,
İkimiz də kövrəldik.
Bir - birimizə sual verdik,
Biz bura niyə gəlmişdik?!

## XOŞBƏXT AİLƏ TABLOSU

Bir vaxtların
“Xoşbəxt ailə tablosu” idi
bu şəkil,
Toxunduq, düşüb sındı,
Ən böyük günaha batdı əllərimiz.
Şəkildəki adamlar söydülər bizi,
Qırıqlanmış şüşələr kəsdi əllərimizi,
Bir - birimizin üstünə atdıq
ikimizin günahını.
Şəklin göz yaşı barmaqlarımızın
qanına çevrildi,
Axdı, axdı...
Sınmış çərçivədən
iki adam üzümüzə
baxdı, baxdı...
Yerdən topladıq şüşə qırıqlarını,
Göz - gözə gəldik.
İstədim deyim ki,
Niyə “Xoşbəxt ailə tablosu” nu
sındırdın?!
Niyə yerə vurdun bu şəkli?!
İstədin deyəsən ki,
Nə xoşbəxt ailə,
Məgər biz xoşbəxtik ki?!